# KÜRDƏMİR: İQTİSADİ İNKİŞAF YENİ UĞURLARA RUHLANDIRIR

**Son illər Kürdəmir rayonunun bütün istiqamətlər üzrə inkişafından, ayrıca olaraq Kürdəmir şəhərinin xüsusi bir görkəmlə müasirləşməsindən, qəsəbə və kəndlərdəki yeniliklərdən sevinc dolusu söhbətlər gedir, qürurlu anlar yaşanır. Hər dəfə aranın böyük rayonlarından biri olan Kürdəmirə yolum düşəndə əsasən şəhərin yeni quruculuq işləri davam edən yerlərində olmağa çalışıram. Kürdəmirin yeni tikililəri, abadlıq quruculuq işlərinin müasir üslubda aparıldığı məkanlara yolum düşərkən sakinlərlə söhbətlərə də cəhd edirəm. Belə məqamlarda hər zaman bir təəssübkeşlik, el-oba sevgisi yaşanır, paylaşılır. Bütün bunlar təbii ki, Kürdəmirin ümumi səviyyəsindən irəli gəlir. Sakinlər rayonlarının daim inkişafda olmasından qürur duyduqlarını, çox işlər görüldüyünü bildirirlər.**

Kürdəmirlilər ölkə rəhbərliyinə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə bütün bu göstərilən qayğı və diqqət üçün sonsuz minnətdar olduqlarını böyük rəğbət və məhəbbətlə dilə gətirirlər.

Əksəriyyət yaxşı başa düşür ki, cənab Prezident Kürdəmirin inkişafında, şəhərin daha gözəl və müasir görkəm almasında necə böyük tədbirlərin görülməsinə, sərəncamlara imza atmış və görülən işləri daim diqqətdə saxlamışdır.

Bu səbəbdən də neçə illərdir ki, Kürdəmir rayonunda abadlıq, tikinti-quruculuq və müasirləşdirmə işləri dinamik inkişafla davam etməkdədir. Məsələ burasındadır ki, illərlə ciddi yanaşılmayan bir çox məsələlərin indi sürətlə öz həllini tapması, gerçəkdən rayon rəhbərliyinin qüvvələri səfərbər etmək bacarığından irəli gəlir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin qayğı və diqqətindən daha da ruhlanan kürdəmirlilər bütün sahələrdə yeni-yeni uğurlar qazanmaq əzmindədirlər. Şəhərin mərkəzi küçələrindən başlayaraq ucqar yerlərə doğru əsaslı abadlıq və yenidənqurma işləri eyni həvəs və işgüzarlıqla davam edir.

Respublikanın hər yerində olduğu kimi Kürdəmir rayonunda da dördüncü Dövlət Proqramının icrası uğurlu nəticələr üzərindədir. Elə bu günlərdə rayonda keçirilən 2019-ci ilin birinci yarısının yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş yığıncaqda da bu və digər mühüm məsələlər haqqında geniş söhbət getmişdir.



İclası giriş sözü ilə açan Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov demişdir ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin yanında Sosial-iqtisadi sahə ilə bağlı 2019-cu ilin birinci yarımilliyinin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş 31 iyul tarixli müşavirədə bu ilin 6 ayında görülmüş işlər ətraflı təhlil edilmiş, qazanılan nailiyyətlər yüksək qiymətləndirilmişdir.

Möhtərəm Cənab Prezidentimiz müşavirədə ilin əvvəlində qarşıya qoyulmuş vəzifələrin icra olunduğunu, ölkəmizin inamla inkişaf etdiyini, böyük infrastruktur layihələrin icra olunduğu, ümumi iqtisadi vəziyyətin müsbət olduğunu, bunun rəqəmlərdə də özünü əks etdiyini qeyd etdi.Cənab Prezidentimiz müşavirədə aparılmış uğurlu islahatların nəticəsində bu ilin altı ayında iqtisadiyyatın 2,4 faiz, qeyri-neft sektorunun 3,2 faiz, qeyri-neft sənayesinin 15,7 faiz, kənd təsərrüfatının 13,0 faiz artdığını diqqətə çatdırdı.

Möhtərəm Cənab Prezident təsərrüfat dövriyyəsinin 20 faizdən çox, qeydi neft ixracının 15 faiz artığını, ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulduğu və bu sərmayənin böyük hissəsinin qeyri-neft sektoruna qoyulan sərmayə olduğunu, inflyasiyanın cəmi 2,5 faiz olduğunu qeyd etdi.Cənab Prezidentimiz müşavirədə qeyd etdi ki, bu ilin əvvəlində çox böyük sosial paket təsdiqlənmiş və bu sosial təşəbbüslər 4 milyondan çox insanı əhatə edir. Çox önəmli addımlar atılmış, minimum əmək haqqı, minimum pensiya əhəmiyyətli dərəcədə qaldırılmışdır və artıq sentyabr ayından ödənişlər həyata keçiriləcəkdir. Minimum əmək haqqı təxminən 2 dəfə qaldırılmış, 130 manatdan 250 manata, pensiya isə 116 manatdan 200 manata çatdırılmışdır.




Hesabat dövründə Kürdəmir rayonunda görülən işlərdən danışan Ceyhun Cəfərov bildirib ki, 2019-cu ilin 6 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə ümumi məhsul buraxılışı 9 faiz artaraq 210155,2 min manat təşkil etmişdir.

Ümumi məhsul buraxılışının 72,8 faizi istehsal sahələrində, o cümlədən 13,3 faizi sənayedə, 53,3 faizi kənd təsərrüfatında, 6,2 faizi tikintidə olduğu halda 21,2 faizi xidmət sahələrində, o cümlədən 1,2 faizi nəqliyyatda, 0,2 faizi rabitədə, 25 faizi ticarətdə olmuşdur.

Rayonun sosial-iqtisadi inkişafı Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində 2019-cu ilin birinci yarımilliyində 559 nəfər işlə təmin olunmuşdur ki, bundan 534 nəfəri daimi işlə təmin olunanlardır.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən "DOST İş Mərkəzi" MMC-nin vasitəsi ilə rayonumuzda ictimai işlərə 355 nəfər işaxtaran vətəndaş cəlb edilmişdir.

Cənab Prezidentimizin diqqət mərkəzində saxladığı məsələlərdən biri olan əhalinin özünüməşğulluğunun təmin olunması ilə əlaqədar rayon Məşğulluq Mərkəzi tərəfindən 32 nəfər biznes ideyalarına uyğun olaraq ailə kəndli təsərrüfatının yaradılması məqsədi ilə təlimlərə cəlb olunmuş, təlimə cəlb olunanlardan 16 nəfər təlimi başa vurmuşdur.

Hazırda 16 nəfər iştirakçının 2-ci qrupda təlim kursu davam edir.Rayonda sahibkarlığın inkişafı üçün Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 2019-cu ilin 6 ayında Kürdəmir rayonunun 6 sahibkarına 897 min manat məbləğində kredit verilmiş və nəticədə 59 yeni iş yeri yaradılmışdır.

Hesabat dövründə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq rayonda aqrar sektorun inkişafına diqqət artırılmışdır. Bu il 11300 hektardan çox sahədə yazlıq bitkilər əkilmiş, sahələrin becərilməsinə 18 mindən çox işçi cəlb olunmuşdur. Əvvəlki illə müqayisədə qarğıdalı,



soya, günəbaxan əkinlərinin sahəsi artırılmışdır. Hesabat dövründə 1475 hektarda yonca, 915 hektarda kartof, 1700 hektarda tərəvəz, 3200 hektarda bostan, 50 hektarda günəbaxan, 30 hektarda yerfındığı, 101 hektarda soya becərilmişdir.

Becərmənin gedişi və sahələrdə məhsulun vəziyyəti göstərir ki, yazlıq əkinlərin məhsuldarlığının bu il daha yüksək olacağı gözlənilir.Rayonda pambıqçılığın inkişafı sahəsində məqsədyönlü işlər görülür, pambığın ixracyönümlü məhsul olduğunu, pambıqçılığın əhalinin işlə təmin olunmasında əsas sahələrdən olması nəzərə alınaraq bu il 2809,2 hektar sahədə pambıq əkilmiş, sahələrdə əsasən normal bitki alınmış, hazırda 3-cü kompleks becərmə işləri aparılır. Pambıq sahələrində ziyanvericilərə qarşı mübarizə işi təşkil olunmuş, 2000 hektar sahədə mənənə və tripsə, 140 hektar sahədə alaq otlarına qarşı kimyəvi mübarizə aparılmışdır. Hazırda pambıq sovkasına qarşı mübarizə işləri aparılır, bioloji mübarizə sahəsində işlər davam etdirilir.

Bu ilin məhsulu üçün ötən ilin payızında 48046 hektar sahədə taxıl, o cümlədən 18120 hektarda buğda, 29926 hektarda arpa əkilmiş, taxıl sahələrinə lazımi aqrotexniki qulluq göstərilmiş, əvvəlki illərdəkindən 3 dəfə çox mineral gübrə verilmişdir. Taxıl biçini əsasən optimal müddətdə aparılmışdır.

162 min ton taxıl, o cümlədən 62,5 min ton buğda, 99,5 min ton arpa istehsal olunmuşdur ki, bu da ötən ildəkindən 35,6 min ton çoxdur. İlk dəfədir ki, rayon üzrə taxılın orta məhsuldarlığı 33,7 sentner olmuşdur.

Hazırda taxıl istehsalının qarğıdalı dəni hesabına artırılması tədbirləri görülür.

Bu ilin yazında 537 hektaradək dənlik qarğıdalı əkilmiş və yüksək məhsuldarlığı təmin edən, müasir texnologiya ilə becərilməsi təşkil olunmuşdur.Qarğıdalı əkinlərinin vəziyyəti göstərir ki, hər hektardan 100 sentnerdən çox qarğıdalı dəni götürüləcəkdir və bu da 5 min tondan çox taxıl deməkdir.

Rayonda baramaçılığın inkişaf etdirilməsi məqsədi ilə ümumilikdə 238500 ədəd tut tingi əkilmiş, bu il 249 kümçüyə 825 qutu barama qurdu verilmiş, rayon üzrə 22652 kiloqram barama tədarük edilərək "Azəripək" MMC-yə satılmışdır.

Bu da əvvəlki ildəki göstəricidən 2250 kq çoxdur. Kümçülərdən Qocalı kəndindən Nahid Budaqov 315 kq, Carlı kəndindən Neyman Həmzəyev 297 kq, Şahbəyli kəndindən Ələmdar Tarverdiyev 249 kq, Köhünlü kəndindən Ruhiyyə Məmmədova 244 kq, Sovla kəndindən Baxış Cəfərov 224 kq, Qarasu kəndindən Neymət Abuşov 224 kq barama təhvil vermişlər.

**Bu il tərəvəzin örtülü qruntlarda yetişdirilməsi genişləndirilmiş, 12 hektarda müasir istixana qurulmuş, əlavə 7 hektar xırda istixanalarda tərəvəz yetişdirilir. Müasir istixanaların sahəsinin 400 hektara çatdırılması üçün hazırlıq işləri aparılır.**

**(ardı növbəti sayımızda)**

**Məzahir ƏHMƏDZADƏ**